UOT 32:93/94

KƏRƏM MƏMMƏDOV
Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının dosenti, siyasi elmlər fəlsəfə doktoru
kerem_mamedov@mail.ru

ELŞAD HƏSƏNLİ
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
elshadhasanli1968@mail.ru

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ DAVAMLI İNKİŞAF AMİLİ KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/129-135

Məqalədə informasiya təhlükəsizliyi məsələsi, onun davamlı inkişaf amili kimi əhəmiyyəti ön plana çəkilmiş, insanların rifahının yaxşılaşdırılması üçün dövlətin siyasi və iqtisadi əsaslarının möhkəmləndirilməsi məqsədilə görülən işlər təhlil olunmuşdur. Milli maraqların təmin olunması yönündə atılan addımlar, dünya çapında yeni çağırışlara qiymət verilməsi və ümumi təhlükəsizliyin qorunması üçün həm qanunvericilik, həm də idarəetmə problemlərinə toxunulmuş, təhdidlərə cavab verilməsi yönündə görülən işlər araşdırılmış, aparıcı dövlətlərin təcrübəsinin nəzərə alınmasının zəruriliyi barədə fikirlər əsaslandırılmışdır.

Açar sözlər: dövlət, informasiya təhlükəsizliyi, münaqişə, erməni terroru, təhlükəsizlik, kibertəhlükəsizlik, davamlı inkişaf.

Giriş. Dayanıqlı inkişaf və sabit cəmiyyət hər bir dövlətin çatmaq istədiyi məqsəddir. İnkişafa nail olmaq üçün isə ümumi təhlükəsizliyin təmin olunması əsas şərtdir. Bu kontekstdə informasiya təhlükəsizliyi də xüsusi əhəmiyyət daşıyır. Belə ki, 21-ci əsr informasiya texnologiyaları əsri, idarəetmə isə informasiyanın ötürülməsi, onun bütün sahələri əhatə edən funksiyası ilə bağlıdır. Hazırda informasiya anlayışı özünün ilkin anlamı olan xəbər formasından xeyli uzaqlaşaraq, həm də idarəetmə amilinə çevrilib. Kompüterin bir düyməsini ani sıxmaqla informasiyanın ötürülməsi yolu ilə nəhəng sistemlərin və müəssisələrin işə salınması adi vərdişə çevrilib. Lakin informasiyanın kodlaşması və onun mühafizəsi məsələsi də günümüzün reallıqlarına daxildir. Bu baxımdan ayrı-ayrı dövlət və özəl qurumların dayanıqlı işini təmin etmək üçün informasiyanın mühafizəsi və onun mümkün təhdidlərdən qorunması da aktual məsələdir.

Əsas hissə. Ölkələrin milli təhlükəsizliklə bağlı siyasəti, təhlükəsizliklə əlaqədar konsepsiya və strategiyalar dövrün tələbləri, mövcud çağırışlar nəzərə alınmaqla, daxili və xarici siyasətin uzlaşdırılması, eləcə də bu sahədə beynəlxalq təcrübənin dəyərləndirilməsi yolu ilə hazırlanır. Təhlükəsizliklə əlaqədar müəyyənləşdirilən kurs hərtərəfli araşdırma, situasiyaların analizi və onların nə ilə nəticələnəcəyini düzgün proqnozlaşdırdıqda uğur gətirə bilər. Dünyanın aparıcı dövlətlərinin yürütdüyü siyasətin, atdığı addımların mənfi və müsbət tərəflərini qiymətləndirərək sərfəli mövqe tutmaq, siyasi tərəfdaşlar qazanmaq uğura gedən yolun başlanğıcıdır.Dünyada gedən proseslər,terror təhlükəsi və digər təhdidlər təhlükəsizlik məsələlərinə ciddi yanaşma tələb edir. Beləki, "terrorizm qloballaşıb və şəbəkə xarakteri alıb. O, hazırda hörümçək toru kimi tədricən planeti əhatəyə alır. Yeni informasiaya texnologiyaları yaraqlıların şəbəkəyə cəlb olunması, terror hücumları və informasiya müharibələrinin aparılması işini çox aktuallaşdırıb" [7, c.62-75].

Hazırda dünya miqyasında baş verən qlobal hadisələr fonunda ABŞ və Rusiyanın təhlükəsizliklə bağlı strategiyasını müqayisə etdikdə onlar arasında son illərdə baş verən dəyişikliklər və konfrontasiyanı aydın görmək mümkündür. Belə ki, prezident Barak Obamanın hakimiyyəti illərində ABŞ-da qəbul olunmuş milli təhlükəsizlik strategiyasında Rusiya ilə münasibətlərə tərəfdaşlıq müstəvisində baxılırdısa, sonrakı illərdə, xüsusilə də Cozef Baydenin idarəçiliyi illərində bu iki ölkə arasında siyasi və hərbi qarşıdurma meyilləri artıb. "Yeni Milli Təhlükəsizlik Strategiyasında Birləşmiş Ştatların bölüşdüyü universal dəyərlərin qorunması və inkişaf etdirilməsi xüsusən Vaşinqtonun sərt

rəqabətdə olduğu dövlətlər ilə mübarizə prizmasından şərh olunur. Belə demək mümkündürsə, bu məqamı qabartmaqla, ABŞ soyuq müharibə illərində olduğu kimi, əsas rəqibləri ilə geosiyasi qarşıdurmaya həm də ideoloji fon verməyə çalışır. Baydenin Milli Təhlükəsizlik Strategiyasında qabardılan əsas aspektlərdən biri də qeyri-stabil dünya nizamında müttəfiq və tərəfdaş dövlətlərlə beynəlxalq əməkdaşlığın gücləndirilməsidir" [5].

Cənubi Qafqaz regionu da ABŞ-ın siyasi və strateji maraqları sırasındadır. Regionumuzla bağlı qeydlər bu ölkənin milli təhlükəsizlik strategiyasında öz əksini tapıb. Bu sənəddə bildirilir ki, ABŞ Cənubi Qafqazda olan münaqişələrin həlli üçün səy göstərəcək. Bu kontekstdə ölkəmizlə Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə əlaqədar olaraq rəsmi Vaşinqtonun səylərini artırdığını görürük. Bu nöqteyi-nəzərdən dövlət katibi E. Blinkenin təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşlərinin təşkili xüsusi əhəmiyyət daşıyır. Blinkenin bu məsələdə vasitəçiliyi həm də Rusiyanın bölgəyə təsirini azaltmaq məqsədi güdür. ABŞ-Rusiya münasibətləri Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar daha kəskin xarakter alıb. Rusiyanın Ukrayna ərazilərinə müdaxiləsi dünyanın digər aparıcı dövlətləri arasında da fikir ayrılığına səbəb olub. Avropa İttifaqı və NATO-ya üzv ölkələr Rusiya-Ukrayna müharibəsi məsələsində Ukraynanın tərəfində olmaqla həm də ABŞ-ın mövqeyini müdafiə edirlər. Hazırda dünyada iqtisadi gücə çevrilmiş Çin Xalq Respublikası isə Rusiya Federasiyası ilə əməkdaşlığa üstünlük verir. ABŞ-ın Tayvanla olan isti münasibəti də Çini rəsmi Vaşinqtona qarşı çıxmasına və onun beynəlxalq maraqlarına zidd addımlar atmasına sövq edir.

2019-cu ildə dünya ölkələrinə yayılan "COVİD" pandemiyası fonunda qlobal iqtisadiyyatda baş qaldıran tənəzzül Rusiya-Ukrayna müharibəsinin başlaması ilə yeni fazaya daxil oldu, inflyasiya və qiymət artımı əhalinin sosial rifah halına öz mənfi təsirini göstərdi. Yaranmış "Taxıl böhranı" Türkiyənin vasitəçiliyi ilə aradan qaldırılsa da bununla bağlı problem hələ də tam olaraq həllini tapmayıb və bu hal dünyada dayanıqlı inkişafa təhdid olaraq qalır.

Təhlükəsizliklə bağlı strategiya dünya çapında öz maraqlarını qoruyan Rusiyanın prioritet məsələləri sırasındadır. Vaxtilə sovet respublikaları sırasında avanqard rola və aparıcı mövqeyə malik olan bu respublika SSRİ-nin dağılması ilə bu arealda təsir mexanizmindən məhrum olsa da müəyyən məsələlərdə rıçaqları əlində saxlamaqda davam edir və yeri gəldikcə bu imkanlardan istifadə etməyə çalışır. Hər bir ölkə kimi Rusiya Federasiyası da öz strateji kursunu müasir dövrün tələbləri səviyyəsində müəyyənləşdirir. Ölkənin yeni Milli Təhlükəsizlik Strategiyası 2021-ci ilin 2 iyul tarixində təsdiqlənib. Bu strateji sənəddə milli təhlükəsizliyin əsas parametrləri sırasında informasiya təhlükəsizliyi də var. Sənədin 4-cü bölməsində informasiya təhlükəsizliyi ilə əlaqədar məsələlər də öz əksini tapıb. Burada bildirilir ki, "dövlətlərin daxili işlərinə qarışmaq, onların suverenliyini sarstmaq və ərazi bütövlüyünü pozmaq üçün informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi genişlənir, bu isə beynəlxalq sülh və təhlükəsizliyə təhdid yaradır. Qeyd olunur ki, Rusiyada xarici informasiya texnologiyalarından istifadə edilməsi ölkə informasiya resurslarının zəifliyini göstərir, xaricdən təsirlərə açıqlığını artırır, informasiya resurslarına kiberhücumların sayı çoxalır, xarici xüsusi xidmət orqanlarının Rusiya informasiya məkanında kəşfiyyat və digər əməliyyatları fəallaşır" [2].

ABŞ informasiya təhlükəsizliyi, o cümlədən kibertəhlükəsizliyin təmin olunmasına böyük önəm verir. Bu ölkə 2011-ci ildə kibertəhlükəsizlik mühiti, azad ticarət və sosial-iqtisadi inkişaf üçün zəmin yaradılması məqsədilə beynəlxalq əsasların qurulması haqqında sənəd hazırlayıb. Həmin sənəddə kommersiya sirri daxil olmaqla bu və ya digər tərəfə aid olan informasiyanı qorumaqla internet üzərindən azad ticarət imkanı yaradılması təklif edilib. İnformasiaya təhlükəsizliyi məsələsi hazırda Qərblə bərabər Asiya ölkələrini də maraqlandıran məsələlər sırasındadır. Beləki, təhlükəsizlik hər bir regionun, eləcə də ayrıca bir ölkənin bu günü və gələcəyi üçün vacib şərtdir. "Asiya ölkələri informasiya təhlükəsizliyinə nail olmaq üçün bu dünyəvi prosesə fəal şəkildə qoşulurlar. Onların bu məsələdə Qərblə fikir ayrılıqları isə özlərinin doktrinal və hüquqi yanaşmaları, eləcə də müasir siyasi proseslərin inkişaf məntiqi ilə əlaqədardır. Bununla belə,opponentlər artıq terrorizm və internetdə cinayətkar fəaliyyətə qarşı, eləcə də kredit kartları ilə bağlı fırıldaqçılıq, uşaq parnoqrafiyası, zorakılığın təbliğivə qeyri-sağlam həyat tərzi ilə mübarizə sahəsində əməkdaşlığa hazırdırlar" [8, c.69-75].

İnformasiya təhlükəsizliyi ilə əlaqədar olaraq BMT və Beynəlxalq Telekommunikasiya İttifaqı, eləcə də Avropa İttifaqının qurumları müvafiq addımlar atır, lazımi qərarlar qəbul edirlər. Bu proses-

də İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin fəaliyyəti də təqdirəlaqidir. 2007-ci il 7 may tarixində Beynəlxalq Telekommunikasiya İttifaqının Qlobal Təhlükəsizlik Gündəliyi qəbul olunub. Gündəlikdə əksini tapan əsas istiqamətlər bunlardır:

1.Qanunvericilik məsələləri (Model qanunlar və s.);

2. Texniki və prosedural önləmlər (Proqram təminatları üçün qlobal səviyyədə qəbul edilən akkreditasiya sxemləri, protokollar və standartlar);

3. Kritik informasiya infrastrukturlarına yönəlmiş hücumlara qarşı mübarizə üçün təşkilati və strateji məsələlər;

4. Kibertəhlükəsizlik üzrə milli siyasətin reallaşdırılması üçün tələb olunan bilik və təcrübənin inkişafı məsələləri;

5. Beynəlxalq əməkdaşlıq, dialoq və koordinasiya məsələləri" [6].

Azərbaycan da özünün dayanıqlı inkişafını təmin etmək üçün lazımi addımlar atır, iqtisadi, siyasi, elmi, texnoloji vasitələrdən yararlanmaqla bərabər, təhlükəsizlik konsepsiyası və strategiyasını müəyyənləşdirib, hərbi doktrina, milli müdafiə amilləri nəzərə alınmaqla informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə zəruri tədbirlər görüb və bu iş müasir tələblər baxımından davam etdirilir. Beynəlxalq və regional müstəvidə mürəkkəb bir vəziyyətin yarandığı indiki zamanda tarazlaşdırılmış, balanslı siyasət aparılması, təhlükəsizliyin qorunması və iqtisadi əməkdaşlığın genişləndirilməsi mühüm bir vəzifə kimi ölkə rəhbərliyinin diqqətindədir. Yaranmış indiki situasiyadan uğurla çıxmaq üçün Azərbaycan prezident İlham Əliyev hər bir işi görür, özünün də dediyi kimi "nəyi nə zaman və necə etmək lazım gəldiyini" özü bilir. Prezidenti İlham Əliyevin rəhbərliyi, tapşırıq və tövsiyələri əsasında yaradılmış qanunvericilik bazası, hazırlanmış hərbi doktrina və milli təhlükəsizliklə bağlı görülmüş işlərlə yanaşı, informasiya təhlükəsizliyinin təmin olunması, cəmiyyətin milli-mənəvi dəyərlərə uyğun fəaliyyəti, insanların psixoloji-informativ hazırlığı və baş verən hadisələrə düzgün reaksiyası da diqqət mərkəzində saxlanılan məsələlər sırasındadır. Bu yöndə atılan hər bir addım ölkəmizin gələcəyi, insanların sosial rifah halının yaxşılaşdırılması, onların tam təhlükəsizlik şəraitində yaşamına şərait yaradılması üçündür.

Ölkə başçısı İlham Əliyev informasiya təhlükəsizliyinin qorunması üçün bu yöndə işləri həm müvafiq strukturların yaradılması, həm də ideoloji müstəvidə təmin edir. Beləki, dövlət başçısı 2012-ci il sentyabrın 26-da "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" fərman imzalayıb. Bu fərmana əsasən Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Departamentinin bazasında Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi yaradılıb. Bu qurum dövlət orqanlarının xüsusi rabitə və xüsusi təyinatlı informasiya-kommunikasiya sistemləri, şəbəkələri, idarələrarası elektron sənəd dövriyyəsi, internet informasiya resurslarının yerləşdirilməsinin, onların mühafizəsinin, eləcə də mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin olunması və digər funksiyaları yerinə yetirir. Bu funksiyaya kibertəhlükəsizliyin təmin olunması da daxildir. Prezident İlham Əliyev informasiya təhlükəsizliyinin qorunması və onun daha etibarlı olması üçün verdiyi fərman isə "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq olunması ilə bağlıdır. 2019-cu il 21 fevral tarixində imzalanmış həmin sənəd bu sahədə yeni çağırışlar və risklərlə bağlı halların qarşısını almaq, daha təkmil hüquqi bazanın yaradılması və müvafiq addımların atılmasını nəzərdə tutur.

Təhlükəsizliyə təhdid olan ermənilər hər vasitədən istifadə edərək Azərbaycana qarşı psixoloji təsir göstərmək, əhali arasında qorxu və xof yaratmaq kimi əməllərə də əl atırlar. Belə ki, 2023-cü ilin aprel ayında sosial şəbəkələrdə "Biz hər yerdəyik, biz burdayıq" başlığı altında Bakıdakı Şəhidlər Xiyabanından video paylaşılmışdı. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının araşdırması nəticəsində məlum olub ki, bu videogörüntü Ermənistan xüsusi xidmət orqanlarının planı üzrə hazırlanıb. Erməni radikal qruplaşması olan "Xaytarak" Azərbaycanda guya nümayəndələrinin olması görüntüsü yaradaraq, Bakıda insanlar arasında təşviş doğurmaq istəyib. Təşkilatçılar videonu hazırlayarkən "Xaytarak" və "Erməni Ari dövləti" emblemlərindən də istifdə ediblər. Azərbaycan DTX-nın apardığı tədqiqatda aşkar olunub ki, videoları çəkən şəxslər Rusiya əsilli İtaliya vətəndaşı Yana Qutselyuk və Bakıda turizm şektorunda çalışan Yelena Lariontsevadır. Bu işdə Yelenaya əslən azərbaycanlı olan Lalə Bəhramova da kömək edib. DTX tərəfindən aparılan

araşdırmada "Xaytarak" erməni radikal qruplaşmasının teleqram kanalının təsisçisi və inzibatçıları da müəyyən edilib. Məlum olub ki, onlar Rusiyanın müxtəlif yerlərində yaşayan Qurgen Tarosyan, Sarkis Arutyunyan, İqor Akopdjanyan və Artur Martirosyandır.

Ölkəmizə qarşı həmişə düşmənçilik mövqeyindən çıxış edən ermənilərlə yanaşı, maddi və digər maraqlar güdən bəzi Azərbaycan vətəndaşları da var və onların da bir qismi işfa olunub. Belə ki, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməliyyatı nəticəsində üçüncü ölkə ərazisində məskunlaşaraq Ermənistan xüsusi xidmət orqanlarının tapşırıqlarını icra edən 1980-ci il təvəllüdlü Əhmədov Rəşad Əhməd oğlu saxlanılaraq Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb edilib. O, dövlətə xəyanətdə və Azərbaycanda terror-təxribat əməlləri törətməyi planlaşdırmaqda ittiham olunur. "Müəyyən edilib ki, Rəşad Əhmədov maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb olunmaqla adıçəkilən ölkənin xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə verdiyi tapşırıqları yerinə yetirib"[3]. Maraqlıdır ki, R.Əhmədov, 1991-ci il təvəllüdlü Əmirov Rövşən Musa oğlu və digərlərini bu işə cəlb edən Yerevan Dövlət Universitetində kafedra rəhbəri Qarnik Asatryan olub. O, bu işi Ermənistan xüsusi xidmət orqanlarının himayəsi altında icra edib.

Azərbaycan dövlətçiliyinə qarşı planlı iş aparan digər bir qrup isə İran İslam Respublikasının xüsusi xidmət və dini qurumları tərəfindən təlimatlandırılmış şəxslərdən ibarətdir.Onlar ölkəmizdə "Kərimə" dövləti qurmağı qarşıya məqsəd qoymuş və bunun üçün ayrı-ayrı yaşayış məntəqələrində bu işə öz tərəfdarlarını cəlb etmiş, silahlı müqavimət dəstələri hazırlamışlar.Bununla əlaqədar Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun mətbuat xidmətlərinin yaydığı birgə məlumatda deyilir ki, "İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq və dini təbliğat yolu ilə ələ alınmış bir qrup Azərbaycan vətəndaşı respublika ərazisində sabitliyin pozulması məqsədilə törədəcəkləri cinayət əməllərinin qarşısının alınması istiqamətində növbəti əməliyyat tədbirləri həyata keçirilib.Müəyyən edilib ki, İran xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və oğlu Əlmürsəl Axundzadə ölkə ərazisində silahlı iğtişaşlar törətməklə Azərbaycanın Konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə "Kərimə" dövlətinin qurulması, ictimaiyyət arasında tanınan və vəzifəli şəxslərin həyatına sui-qəsdlərin təşkil edilməsi məqsədilə müqavimətçi dəstələr təşkil etmək barədə xüsusi fəaliyyət planı hazırlayıblar. Həmin planın bir hissəsi kimi Rufulla Axundzadə "whatsapp", "telegram" və digər ani mesajlaşma sistemlərində məxfi qruplar yaradıb" [1]. R.Axundzadə, onun oğlu və 7 nəfərdən ibarət qrup dövlət nümayəndələrinin, tanınmış şəxslərin iş və yaşayış yerlərinin ünvanlarını müəyyənləşdirmiş, onların siyahısını tutmuş, öz əlaltılarının şəbəkəsini genişləndirmək və lazımi anda hərəkətə keçmək barədə tapşırıq almışlar. Qrup üzvləri həmçinin Azərbaycanda dini və etnik zəmində qarşıdurmalar yaratmalı, cəmiyyətin parçalanması yönündə iş aparmalı, silahlı qarşıdurmaya zəmin hazırlamalı və terror əməlləri törətməli imişlər. Silah əldə etmək və "Molotov kokteyli" hazırlamaq barədə tapşırıq bu işlərin həyata keçirilməsi məqsədi daşıyıb.

Göründüyü kimi, istər erməni xüsusi xidmət orqanlarının, istərsə də İran məxfi xidmət təşkilatlarının planlaşdırdığı bu aktlar Azərbaycana qarşı düşmənçiliyin, ərazi qəsbinin və dövlət çevrilişinə cəhdin sübutudur.Ölkəmizin hərbi hissələrinin dislokasiya yerlərini öyrənmək, ərazinin təsvirlərini əldə etmək, Azərbaycan ərazilərinin təhrif olunmuş xəritələrini hazırlayıb yaymaq, etnik və dini zəmində qarşıdurmalar yaratmaq, nüfuzlu və vəzifəli şəxslərin həyatına sui-qəsd planı hazırlamaq, digər bu kimi cəhdlər mənfur qonşuların dövlət siyasəti səviyyəsində təzahürünün göstəricisidir. 44 günlük Vətən müharibəsində qələbəmizi həzm edə bilməyən erməni millətçiləri və fars şovinistləri Azərbaycana qarşı düşmənçilik mövqeyindən əl çəkmir, hər vəchlə onun təhlükəsizliyinə təhdid yaradır. Onlar unudurlar ki, "dövlətə rəhbərlik missiyasını üzərinə götürən liderin şəxsiyyətcə bütöv, iradəli və sarsılmaz olması xalqın özünə inamını təmin etməklə yanaşı, hər bir vətəndaşın sabit yaşam tərzinə imkan yaradır. Bu mənada cənab İlham Əliyev elə ilk andan dövlət maraqları ilə bağlı həlledici məqamlarda qətiyyətli mövqe tutduğunu, bir çoxları üçün çətin və riskli görünən siyasi gedişlərdən belə, çəkinmədiyini sübuta yetirmişdir" [4, s.75-82].

Prezident İlham Əliyev dövlət başçısı qismində öz idarəetmə bacarığı ilə bərabər, bir informator kimi də Azərbaycana olan təzyiq və təhdidləri neytrallaşdıra, həqiqətin üzə çıxmasına nail ola bilir. Məlum olduğu kimi, 2-ci Qarabağ müharibəsindən sonra həm Ermənistan, həm də onun hava-

darları tərəfindən ölkəmizə qarşı təbliğat aparılır, dezinformasiya yayılır. Ölkəmizin başçısı yüksək intellekti, natiqlik keyfiyyətləri və öz dəqiqliyi ilə taleyüklü məsələlərin məğzini qarşısındakı istənilən auditoriyaya və geniş mənada beynəlxalq aləmə çatdıra bilir. Azərbaycana qarşı informasiya müharibəsi, qarayaxma, gözdənsalma kampaniyalarına ən sərrast zərbəni məhz Ali Baş Komandan İlham Əliyev dəqiq və təkzibolunmaz faktlarla vurur. Biz buna möhtərəm prezidentin hər bir beynəlxalq nümayəndə heyətləri ilə görüşündə, həm xarici ölkələrə səfərlərində, həm də aparıcı beynəlxalq təşkilatların tədbirlərində görürük. İnformasiyanın nəyə qadir olduğunu yaxşı başa düşən dövlət başçımız bu yumşaq, amma təsirli gücdən necə istifadə etməyi bir siyasi xadim kimi həmişə nəzərə alır və öz sözünü məqamında deyir.

Azərbaycan Respublikası iqtisadiyyatı dirçəltmək və dayanıqlı inkişafa nail olmağı qarşısına məqsəd qoyub və bu istiqamətdə də işini davam etdirir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulan ölkəmiz vətəndaşların hərtərəfli təminatı, onların sosial, təhsil, elm və inkişafın digər parametrləri üzrə hüquqlarının təmin olunması yönündə planlı iş aparır, onların təhlükəsiz bir mühitdə yaşamasına şərait yaradır. Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, beynəlxalq əlaqələrin və tranzit imkanlarının genişləndirilməsi üçün zəruri işlər görür.

Azərbaycanda informasiya təhlükəsizliyi ilə bağlı məsələlər ölkə qanunlarında öz əksini tapıb. Qeyd edək ki, informasiya təhlükəsizliyinin təmin olunması ilə bağlı tələblər bir sıra digər qanunlarda, o cümlədən "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda, eləcə də Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında göstərilib. Bütün bu sənədlərdə qeyd olunur ki, informasiya təhlükəsizliyinin təmin olunması məsələləri ümumilikdə dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, eləcə də informasiya sahəsində milli maraqların qorunması və mühafizəsinə əsaslanır. Milli maraqların mühafizəsi və bu sahədə səmərəli fəaliyyətin təmin olunması üçün təhlükəsizlik konsepsiyasında dövlətin kəşfiyyat qabiliyyətinin uzlaşdırılması, tədbirlər kompleksinin həyata keçirilməsi, həmçinin məxfi informasiyanın mühafizəsinin koordinasiyalı şəkildə təmin edilməsi nəzərdə tutulub.

Beynəlxalq təhlükəsizik, terrorizmlə mübarizə, eləcə də kibercinayətlərin qarşısının alınması, eləcə də belə cinayətləri törədənlərin, yaxud da planlaşdıran qurum və şəxslərin ayrıca bir dövlət tərəfindən ifşası çox vaxt mümkün olmur. Bunun üçün ölkələrin xüsusi xidmət orqanlarının birgə fəaliyyəti uğur qazandıra bilər. Azərbaycan bu istiqamətdə bir çox xarici dövlətlərlə əməkdaşlıq edir, təcrübə və informasiya mübadiləsi aparır. Yürüdülən düzgün siyasi, iqtisadi, sosial siyasət, aparılan islahatlar, insan hüquq və azadlıqlarının qorunması, sabitlik ölkənin inkişafı üçün təminat verən amillərdir. Yaxın keçmişdə və müasir dövrdə ölkə daxilində və dünya çapında baş verən hadisələr, yeni çağırışlar nəzərə alınmadan uğurlu islahatlar həyata keçirmək mümkün deyil. Tarixi təcrübə və keçmişin dərsləri nəzərə alınmaqla və yeni tələblərə cavab verməklə uğura nail olmaq mümkündür. Bu, dövlətin dayaqlarının möhkəmləndirilməsinə, milli iqtisadiyyatın artmasına, əhalinin sosial həyatının yaxşılaşmasına xidmət edir. Ölkə başçısı İlham Əliyev dövlətin inkişafı, cəmiyyətimizin yenilənməsi, dövrün tələblərinə uyğun fəaliyyətin təmin olunması üçün zəruri addımlar atır, lazımı göstərişlər verir.

Nəticə. Müasir dövlətçilik təcrübəsində informasiya təhlükəsizliyi problemi mühüm əhəmiyyətə malikdir və bu həm də dayanıqlı inkişafa təminat verən amildir. Hərbi, siyasi və iqtisadi çəkişmələr fonunda cərəyan edən hadisələr beynəlxalq birliyin hər bir subyektindən vəziyyətə uyğun hərəkət etməyi diktə edir:

1.Ümumi təhlükəsizlik fonunda informasiya təhlükəsizliyinin təmin edilməsi;

2.Davamlı inkişafa nail olmaq üçün BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin nəzərə alınması və bununla bağlı tədbirlər görülməsi;

3.Yeni çağırışlar və təhdidlərə lazımi cavab vermək, Ermənistanla ədalətli sülhün imzalanmasına nail olmaq.

ƏDƏBİYYAT

1. Azərbaycanda İran xüsusi xidmət orqanlarının istəyi ilə "Kərimə" dövləti qurmaq istəyən şəxslər həbs edilib. - https://report.az/hadise/din-dtxvebas prokurorluq birge melumat yayib/ [01.11.2024].

2. Cəfərli Ş. Rusiyanın yeni milli təhlükəsizlik strategiyası. - https://bakuresearchinstitute.org/ [01.11.2024].
3. Ermənistan xüsusi xidmət orqanları ilə məxfi əməkdaşlığa cəlb olunmuş şəxslər ifşa ediliblər. https://report.az/daxili-siyaset/ [01.11.2024].
4. Məmmədzadə İ. İlham Əliyevin dövlətçilik fəlsəfəsinin bəzi aktual problemləri. Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqamətləri. Mühazirələr toplusu. Bakı,"MTM-İnnovation" MMC, 2018, s.75-82.
5. Məmmədli M. ABŞ-ın Milli Təhlükəsizlik Strategiyası ənənəvi olaraq dünya nizamında yeni tendensiyaları özündə ehtiva edir. - https://525.az/news/203954 [01.11.2024].
6. Musayev V, İmamverdiyev Y. İnformasiya təhlükəsizliyi sahəsində beynəlxalq çağırışlar, təşəbbüslər və öhdəliklər. İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı, 14 may 2015-ci il.
7. Миронов С.Через солидарность к мирному развитию. Журнал «Международная жизнь»: Москва, июнь, 2015, №6, с.62-75
8. Валиахметова Г.Н. Проблемы информационной безопасности в Азии // Журнал «Восток. Афро-азиатские общества: история и современность». Москва, 2015, №1, с.69-75.

КАРАМ МАМЕДОВ
Доцент кафедры «Дипломатия и современные интеграционные процессы» Бакинского государственного университета, доктор философии в области политических наук

ЭЛЬШАД ГАСАНЛЫ
Ведущий научный сотрудник Института философии и социологии НАНА, доктор философии по политическим наукам, доцент

ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ КАК ФАКТОР УСТОЙЧИВОГО РАЗВИТИЯ

В статье на первый план был выдвинут вопрос информационной безопасности, ее значение как фактора устойчивого развития, а также проанализирована проделанная работа по укреплению политических и экономических основ государства для повышения благосостояния народа. В данной статье затронуты шаги, предпринятые в направлении обеспечения национальных интересов, оценки новых вызовов во всем мире и защиты общей безопасности, проблемы законодательства и управления, рассмотрены работы, проделанные в направлении реагирования на угрозы, а также обоснованы мнения о необходимости учета опыта ведущих государств.

Ключевые слова: государство, информационная безопасность, конфликт, армянский терроризм, безопасность, кибербезопасность, устойчивое развитие.

KARAM MAMMADOV
Associate Professor of the Department of "Diplomacy and Modern Integration Processes" of Baku State University, Doctor of Philosophy in Political Sciences

ELSHAD HASANLI
Leading Researcher of the Institute of Philosophy and Sociology of ANAS, Doctor of Philosophy in Political Sciences, Associate Professor

INFORMATION SECURITY AS A FACTOR OF SUSTAINABLE DEVELOPMENT

The research work highlighted the issue of information security, its importance as a factor in sustainable development, and analyzed the work done to strengthen the political and economic foundations of the state to improve the well-being of the people. This article touches upon the steps

taken to ensure national interests, assess new challenges around the world and protect common security, issues of legislation and management, examines the work done in response to threats, and substantiates opinions on the need to take into account the experience of leading states.

Keywords: state, information security, conflict, Armenian terrorism, security, cybersecurity, sustainable development.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: s.e.f.d. Afət Səfərova, s.e.d. Adil Mirabdullayev.